Yeni Azərbaycan.- 2025.- 12 mart, №45.- S.8.



# "Sağlığında qiymət verin insanlara"

## Cabir Novruzun anadan olmasından 92 il ötür...

*Yeganə BAYRAMOVA*

Bu gün yaradıcılığı ilə ədəbiyyatımızın yeni səhifələrini yazan, ləyaqətli bir ömrün sahibi, Xalq şairi Cabir Novruzun doğum günüdür. Şairin anadan olmasından 92 il ötür.

Ədəbiyyatımızın unudulmaz nümayəndəsi Cabir Novruzun məşhur bir misrası var: "Sağlığında qiymət verin insanlara". Əslində qürur duyur, təskinlik tapırıq ki, Cabir Novruz məhz öz sağlığında istər oxucuları, istərsə də dövlətimiz tərəfindən layiqli qiymətini alıb, həmişə qədirli və qiymətli olub. Xalq şairi kimi yüksək fəxri ada layiq görülmüş görkəmli söz sərrafımız Cabir Novruz Ulu Öndər Heydər Əliyev tərəfindən Prezidentin fəxri təqaüdünə layiq görülmüşdü.

Şair 1933-cü il mart ayının 12-də Xızı rayonunun Upa kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra Mirzə Ələkbər Sabir adına Pedaqoji Texnikumda təhsil alıb və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə təhsilini davam etdirmək üçün Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilib və 1957-ci ildə oranı bitirib.

1958-ci ildə "Bakı" axşam qəzetinin ədəbiyyat şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan Cabir Novruz 1967-1970-ci illərdə "Ulduz", 1984-1987-ci illərdə "Azərbaycan" ədəbi-bədii jurnallarının, 1991-1993-cü illərdə isə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdı. O, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin katibi olub.

Cabir Novruzun poeziyası 20-ci əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edir. Onun əsərlərində milli irsimizin zəngin ənənələri müasir ədəbi cərəyanların tələbləri ilə üzvü şəkildə birləşir. Ədəbiyyat aləminə gəldiyi ilk illərdən şair yüksək bəşəri-mənəvi dəyərləri tərənnüm edən şerləri ilə oxucuların dərin məhəbbətini qazanıb. Onun qələmindən çıxan lirik poeziya nümunələri və epik lövhəli əsərlər bədii səviyyəsi, mövzu rəngarəngliyi ilə seçilir. Şairin yüksək mənəviyyata səsləyən yaradıcılığı və vətəndaş ruhunun hakim olduğu poeziyası öz dilinin bədii gözəlliyi və rəvanlığı ilə səciyyələnir. Onun sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbət və sevinclə qarşılanıb.

Cabir Novruzun yaradıcılığı vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında mühüm xidmətlər göstərib. Vətənin taleyi üçün narahatlıq hissinin xas olduğu Cabir Novruz poeziyasının başlıca mövzuları azərbaycançılıq ideyaları ilə sıx bağlı olub. Şairin poetik təfəkkürü onun lirikasının tarixiliyini qüvvətləndirib və bu poeziyanı daha həyati edib.

Şairin əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunub. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanmışdı.

Cabir Novruzun ictimai fəaliyyəti də zəngin olub. O, həyatının bütün mərhələlərində ölkəmizdə gedən ictimai-siyasi proseslərin həmişə fəal iştirakçısı olub, xalqımızın həyatında baş verən taleyüklü hadisələrə düzgün qiymət verilməsində əsl vətəndaşlıq mövqeyi nümayiş etdirib.

Şairin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi", "Xalq şairi" fəxri adlarına, dövlət mükafatına, orden və medallara layiq görülüb. Cabir Novruz Azərbaycan Milli Məclisinin deputatı olub.

Görkəmli şair, həqiqi vətəndaş və səmimi insan Cabir Novruzun əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır...